

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (23.368)

1 noyabr 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: Mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Siz bu günə qədər icra başçısının müavini vəzifəsində işləmisiniz, müəyyən təcrübə toplamısınız. İndi isə sizə böyük etimad göstərərək Xaçmaz və Yevlax rayonlarına icra başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır və siz bu etimadı doğrultmalısınız.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 31 oktyabr tarixli sərəncamları ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**İmanov Vilayət Yəhya oğlu**

3-cü dərəcəli "Əmək" ordeni ilə,

**Babayev Nizami Məmməd oğlu**
**Hüseynov Yenibar Sevindik oğlu**
**Kamalov Əsəd Qəzənfər oğlu**
**Mehdiyev Valeh Seyfulla oğlu**

"Tərəqqi" medalı ilə,

**Hacıyev Rahət Tofiq oğlu**

"Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə təltif edilmişlər.

## Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Şahbuz rayonunda icbari tibbi sığorta tətbiq edilsin.

2. Şahbuz Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 2-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin Nizamnaməsini təsdiq etsin və 2019-cu il noyabrın 1-dən fəaliyyətini təmin etsin;

3.2. icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Şahbuz Rayon Mərkəzi Xəstəxanası işçilərinin aylıq vəzifə maaşlarının 2019-cu il noyabrın 1-dən 50 faiz artırılmasını təmin etsin.

4. Bütün mərkəzi icra hakimiyyəti orqanlarına, aidiyyəti dövlət qurumlarına, Şahbuz Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə zəruri köməklik göstərilməsini təmin etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 oktyabr 2019-cu il*

## Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır



Oktyabrın 31-də Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan quruculuq işləri səhiyyə müəssisələrini də əhatə etmişdir. Mərkəzi və sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulmuş, yeni tibbi avadanlıqlarla təchiz edilmişdir. Səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Bu ilin iyul ayından etibarən Şahbuz rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə başlanılmışdır. Rayonda əhaliyə rayon mərkəzi xəstəxanası, 13 həkim ambulatoriyası və 9 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. İcbari tibbi sığortaya keçid rayon əhalisinin sağlamlıq göstəricilərinin yüksəlməsində mühüm rol oynayacaqdır. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov demişdir ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətinin keyfiyyətinin daha da artırılmasına töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarına əsasən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi təkamül yolu ilə aparılmış, tələb olunan kadr, avadanlıq, təlim, resurs və infrastruktur təminatı uğurla həyata keçirilmişdir. Artıq muxtar respublikanın Sədərək, Şərur və Kəngərli rayonlarında bu iş başa çatdırılıb. 2019-cu ilin ötən 9 ayında həmin rayonlarda yaşayan əhali tərəfindən, ümumilikdə, tibb müəssisələrinə 14 min 346 müraciət edilmişdir. Müraciət edənlərə 35 min 605 adda tibbi xidmət göstərilmişdir. İcbari tibbi sığortanın baza zərfinə daxil olan rayon mərkəzi xəstəxanaları tərəfindən həyata keçirilməsi mümkün olmayan tibbi xidmətlər üçün icbari tibbi sığortanın tətbiqində iştirak edən digər xəstəxanalara Sədərək, Şərur, Kəngərli rayonlarından, ümumilikdə, 433 göndəriş olmuşdur. Samiq Sadıxov Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işləri diqqətə çatdırmışdır.

Tibb bacısı Tərlan Kazımova minnətdarlıq edərək demişdir ki, muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğı göz önündədir. Bu gün Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi rayon əhalisinə nümunəvi tibbi xidmət göstərməyə imkan verəcəkdir. Tərlan Kazımova yaradılan şəraitdən istifadə edərək əhaliyə hərtərəfli səhiyyə xidməti göstərəcəklərinə söz vermişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan Respublikasının ən qiymətli sərvəti onun insanlarıdır"*** fikrini xatırladaraq demişdir: İnsanların sağlamlığının qorunması ölkədə səhiyyə sisteminin müasir tələblər səviyyəsində qurulmasını zəruri edir. Bu gün Azərbaycanda müasir tibbi avadanlıqlarla təmin olunmuş səhiyyə müəssisələri istifadəyə verilir, kadr hazırlığı diqqətdə saxlanılır, həkimlər ölkəmizdə və xaricdə təkmilləşdirmə kurslarında iştirak edirlər. Görülən işlərin nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında səhiyyə xidmətinin səviyyəsi yüksəlmişdir.

Ali Məclis Sədri demişdir: Əhaliyə keyfiyyətli səhiyyə xidməti göstərilməsinin müasir yolu icbari tibbi sığortanın tətbiqidir. Lakin lazımi səhiyyə infrastrukturu yaratmadan bu işi həyata keçirmək olmaz. Ona görə də muxtar respublikada bütün səhiyyə müəssisələri, rayon mərkəzi xəstəxanaları, sahə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer-mama məntəqələri yenidən qurulmuş, müasir tibbi avadanlıqlarla təmin olunmuşdur. Eyni zamanda muxtar respublikada həkim hazırlığı işi də uğurla həyata keçirilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci muxtar respublikanın səhiyyə müəssisələrinin həkim və orta tibb işçilərinə olan tələbatını ödəyir. Müasir səhiyyə müəssisələrinin qurulması və həkim hazırlığı işin bir tərəfidirsə, digər əsas məsələ isə yaradılan şəraitdən səmərəli istifadə etmək və səhiyyə xidmətini günün tələbləri səviyyəsində qurmaqdır. Nəzərə almaq lazımdır ki, tibbi avadanlıqlardan düzgün istifadə diaqnoz və müayinənin əsasını

Ardı 2-ci səhifədə



təşkil edir. Ona görə də həkim və tibb işçiləri alınan avadanlıqları öyrənməli, onları düzgün tətbiq etməli, əhaliyə nümunəvi səhiyyə xidməti göstərilməlidir.

Ali Məclisin Sədri demişdir: Bu gün Şahbuz rayonunda əhaliyə bütün səhiyyə xidmətlərini göstərmək mümkündür. Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın baza zərfinə daxil olan 1500-dən artıq tibbi xidmətin 513-ü Şahbuz rayonundakı səhiyyə müəssisələri tərəfindən həyata keçiriləcəkdir. Yaradılan müasir səhiyyə infrastrukturu, həkim hazırlığı və görülən işlər gələcəkdə rayonda göstərilən tibbi xidmətlərin sayının artmasına və əhalinin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir.

"Ölkənin inkişafı onun sağlam insanlarından asılıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, insanların sağlamlığının qorunması üçün dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir. Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı da mühüm işlər görülmüş, dövlət vəsaiti hesabına rayon mərkəzi xəstəxanasına 52 adda tibbi avadanlıq və ləvazimatlar alınıb verilmişdir. İcbari tibbi sığortanın tətbiqi həm də həkimlərin formalaşmasına mühüm təsir göstərəcək, müraciətlərin sayı artacaqdır. Ona görə də xəstəxanada həkim-xəstə münasibətləri düzgün qurulmalı, dəqiq diaqnozlar qoyulmalı və müayinələr aparılmalıdır. Kollektiv yaradılanları qorumalı, tibbi avadanlıqlardan səmərəli istifadə olunmalı və rayonda icbari tibbi sığortanın tətbiqi uğurla həyata keçirilməlidir.

"İcbari tibbi sığortanın tətbiqi ilə Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim və tibb işçilərinin əməkhaqları 50 faiz artırılacaqdır. Yeni tibbi avadanlıqların alınması və əməkhaqların artırılması kollektiv qarşısında bir vəzifə qoyur: o da sakinlərə keyfiyyətli səhiyyə xidməti göstərməkdən ibarətdir", – deyən Ali Məclisin Sədri kollektivə fəaliyyətində uğurlar arzulamış, icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, icbari tibbi sığortanın tətbiqi məqsədilə Şahbuz Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılmış, xəstəxananın Təcili tibbi yardım, Laboratoriya və Doğum şöbələri yenidən təşkil edilmiş, ilkin səhiyyə xidməti müasir tələblərə uyğunlaşdırılaraq qəbul həkiminin fəaliyyəti təmin olunmuşdur. Poliklinika şöbəsində, burun-qulaq-boğaz, Oftalmoloji və Stomatoloji kabinələrdə, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində, Laboratoriyada, Ginekoloji və doğuş bölməsində 52 adda yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılmış, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilmişdir.

Xəstəxanada sürətli internet şəbəkəsi yaradılmış, 43 kompüter alınmış, mərkəzi server vasitəsilə "Səhiyyə informasiya idarəetmə sistemi" yaradılmış və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələri ilə qarşılıqlı əlaqə təmin olunmuşdur. Hazırda xəstələrin qeydiyyatı "Səhiyyə informasiya idarəetmə sistemi" vasitəsilə həyata keçirilir. Agentliyin Şahbuz Rayon Mərkəzi Xəstəxanası üzrə qeydiyyat məntəqəsi və elektron məlumat bazası da yaradılmışdır.

## Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir

Oktyabrın 31-də Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, səhiyyənin inkişafı müasir infrastruktur təminatı və kadr hazırlığından başlanır. Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublikanın səhiyyə sistemində də çətinliklərin yaranmasına səbəb olmuşdur. Lakin ötən dövrdə muxtar respublikada səhiyyə müəssisələrinin yenidən qurulması, müasir tibbi avadanlıqların alınması və kadr hazırlığı sahəsində görülən işlər öz nəticəsini vermişdir. Artıq muxtar respublikada infeksion xəstəliklərin, eləcə də ana və uşaq ölümlərinin qarşısı alınmışdır. Səhiyyənin inkişafı sahəsində görülən işlər muxtar respublikada icbari tibbi sığortanın uğurla tətbiq olunmasına imkan verir.



Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikası baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov və Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev aidiyyəti üzrə məlumat vermişlər.

Ali Məclisin Sədri noyabrın 1-dən etibarən Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiq olunması, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərin birgə nəzarətdə saxlanılması, monitorinqlərin aparılması, bu sahədəki yeniliklərin öyrənilərək tətbiq edilməsi, Ordubad, Culfa və Babək rayonlarında da icbari tibbi sığortanın tətbiqi sahəsində işlərə başlanılması və qısa müddətdə başa çatdırılması barədə aid qurumlara tapşırıqlar vermişdir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev icbari tibbi sığortanın tətbiqi və səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə görə rayon sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində oktyabr ayının son 15 günü ərzində müəyyən qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 oktyabr tarixli Qərarı ilə "Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində "Sahil Parkı" İdarəsinin yaradılması və fəaliyyətinin təşkil olunması haqqında" Qərar təsdiq olunmuşdur. Bundan başqa, həmin tarixdə "Naxçıvan Muxtar Respublikasında artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları" təsdiq edilmişdir. Bu qaydalara əsasən Naxçıvan Muxtar Respublikasında vergiödəyicisindən və ya sığortaedəndən düzgün tutulmamış və ya onun tərəfindən artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, hesablanmış faizlərin, habelə vergi və məcburi dövlət sosial sığorta qanunvericiliyinin pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyalarının məbləğlərinin qaytarılması müəyyən edilir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 23 oktyabr tarixli 153 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 aprel tarixli 79 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yol hərəkətinin təhlükəsizliyinin təmin olunması üzrə Muxtar Respublika Komissiyası üzvlərinin Siyahısı"nda və "Əllə toxunmuş xalçaların reyestr sistemi"nə daxil edilməsi nəzərdə tutulan xalçalara dair məlumatlar haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 57 nömrəli Qərarında da dəyişikliklər edilmişdir.

Həmçinin həmin tarixdə "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli 61 nömrəli Qərarında dəyişikliklər olunmuşdur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Tələbələr hami təşkilatlarda təcrübədə olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar oktyabr ayının 30-31-də Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisaslarının II kurs tələbələri Ədliyyə Nazirliyində təcrübə keçiblər. İki gün ərzində tələbələr təcrübə müddətində bu qurumların iş fəaliyyəti ilə tanış olub, gündəlik iş prosesində iştirak edib, maraqlandıqları sahələr barədə ətraflı məlumat alıblar.

Universitetin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə II kurs tələbələri nazirliyin Bələdiyyələrlə iş mərkəzində və Əliabad bələdiyyəsində onlara mərkəzin fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib.

Tələbələr Əliabad bələdiyyəsinin gündəlik iş prosesi ilə tanış olublar.

Hüquqşünaslıq ixtisası üzrə tələbələr isə nazirliyin Penitensiar Xidmətində, Məhkəmə Ekspertizası Mərkəzində, İcra və probasiya şöbələrində təcrübə keçiblər. Onlara burada xidmətin əsas fəaliyyət istiqamətləri, cəzaçəkmə müəssisəsinin rejim növləri barədə ətraflı məlumat verilib.

Məhkəmə Ekspertizası Mərkəzində tələbələrə praktik olaraq ballistik ekspertizaların keçirilməsi ilə bağlı xətşünaslıq üzrə aparılan ekspertiza və saxta sənədlərin, pul nişanlarının aşkar edilməsi, daktiloskopiya sahəsində müxtəlif təcrübəvi işlər aparılması haqqında məlumat verilib. Fiziki-kimyəvi laboratoriyada isə onlar narkotik vasitələrin tədqiqatlarının aparılması üçün nəzərdə tutulan avadanlıqla tanış olublar.

Daha sonra tələbələr nazirliyin İcra və probasiya şöbəsində probasiya sahəsi üzrə müasir elektron izlənmə nəzarət sisteminin iş prinsipini öyrəniblər. Bununla yanaşı, Naxçıvan Şəhər İcra və Probasiya Şöbəsində iş prosesində də iştirak ediblər.

Hər iki ixtisas üzrə tələbələr nazirliyin kitabxanasında da olublar.

İkigünlük təcrübənin sonunda nazirlikdə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Emin Səfərov çıxış edərək bildirib ki, belə tədbirlər tələbələrin ədliyyə sahəsi üzrə nəzəri biliklərini praktik şəkildə mənimsəmələrinə müsbət təsirini göstərir.

Ədliyyə müşaviri, ekspert qrupunun rəhbəri Səttar Zamanov "İdeyadan başlanğıca" layihəsinin icrası istiqamətində nazirlikdə görülən işlər, eləcə də *startup.nakhchivan.az* internet portalı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra tələbələrin sualları cavablandırılıb.

**Pərviz HACILI**



Dünən Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində Naxçıvan Dövlət Universitetinin komitənin hamiliyinə verilmiş müvafiq ixtisaslarında təhsil alan tələbələrlə görüş keçirilib. Tədbiri giriş sözü ilə komitənin sədri Müslüm Cabbarzadə açaraq tələbələrə Naxçıvan Muxtar Respublikasında dövlət torpaq idarəçiliyi sahəsində keçilmiş yol və qarşıda duran vəzifələrlə bağlı geniş məlumat verib.

Komitə sədri hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrin bacarıqlı mütəxəssis kimi formalaşması, yeni ideyaların üzə çıxarılması, yaradıcı düşüncənin inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə komitə əməkdaşlarından Nurlan Fətəliyevin "İnnovativ ideyalar əsasında yeni layihələrin işlənməsi", Cəfər Əliyevin "Müasir torpaq idarəçiliyində geodeziyanın rolu" mövzularında çıxışları dinlənilib.

Görüş zamanı hamiliyə verilmiş ixtisaslara yeni qəbul olunmuş tələbələrin innovativ ideyaları dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Sonda tələbələr komitədə iş prosesi, müasir geodeziya-ölçü avadanlıqları ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



### 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Naxçıvanda aqrar sahə uğurla inkişaf etdirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***

Ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan keçmiş İttifaqın aqrar əlavəsindən kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrilmişdir. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdır. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdılmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli lider isə kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkmiş, bununla bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu islahatlar həyata keçirilmiş, qanunvericilik bazası yaradılmışdır.

Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür, dövlət proqramları qəbul olunur.

Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafı da daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olmuşdur. 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə 56 min 372 hektar torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan vermiş, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılmışdır. Qəbul edilən dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər məhsul bolluğuna zəmin yaratmış, təsərrüfatın müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirmişdir.

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. 2019-cu ilin məhsulu üçün muxtar respublikada 62 min 970 hektar sahədə əkin aparılmışdır. Cari ilin ötən 9 ayında muxtar respublikada 109 min 760 ton dənli və dənli-paxlalı, 4207 ton dən üçün qarğıdalı, 772 ton dən üçün günəbaxan, 74 min 934 ton tərəvəz, 49 min 139 ton kartof, 36 min 790 ton bostan məhsulları, 40 min 202 ton meyvə, 9869 ton üzüm istehsal olunmuşdur. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.





Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdəndir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Belə ki, son illər muxtar respublikada 4 min 135 hektar sahədə yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Hazırda Şahbuz rayonunun Türkeş kəndində bu işlər davam etdirilir.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhali tələbatının ödənilməsi üçün geniş imkanlar açmışdır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır.

Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə ət və süd məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 119 min 814-ə, xırdabuynuzlu heyvanların sayı isə 741 min 539 başa çatdırılmışdır. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qara üzrə 1845 baş, xırdabuynuzlu heyvanlar üzrə 12 min 806 baş çoxdur. Cari ilin ötən dövründə 9 heyvandarlıq təsərrüfatı yaradılmış, 2 heyvandarlıq təsərrüfatı genişləndirilmişdir. Ümumilikdə, yanvar-sentyabr aylarında kənd təsərrüfatı subyektlərinə 8 milyon 776 min 600 manat məbləğində kreditlər verilmişdir ki, bunun da 7 milyon 23 min manatı heyvandarlığa yönəldilmişdir.

Muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmışdır. Hazırda mərkəzdə yeni infrastruktur obyektlərinin tikintisi davam etdirilir. Heyvandarlıq təsərrüfatlarında 9 min 654 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 6 min 383 baş sağlam bala alınmışdır. Həmçinin əhalinin balıq əti ilə təmin olunması istiqamətində də əsaslı işlər görülmüşdür. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada balıq yetişdirilməsi ilə bağlı 16 təsərrüfat fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsində 2019-cu ilin ötən 9 ayı ərzində diri çəkidə ət istehsalı 19 min 105 ton, süd istehsalı 72 min 451 ton, yun istehsalı 904 ton, yumurta istehsalı isə 76 milyon 634 min 800 ədəd olmuşdur.

Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün Dövlət Baytarlıq Xidməti ilə birgə sistemli tədbirlər görülür, qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, mal-qara və quşlar arasında baş verə biləcək xəstəliklərə qarşı profilaktik peyvəndləmə tədbirləri uğurla davam etdirilir.

Muxtar respublikada 74 min 244 arı ailəsi mövcuddur. Bu sahə üzrə dövlət proqramının qəbul olunması, istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq “Arıçılıq məhsulları – bal festivalı”nın keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olmuşdur.

Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz edilməsinin böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövrdə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2694 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 2240-ı nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Alınmış texnika və aqreqatların 319-u 2019-cu ilin ötən 9 ayında gətirilmişdir. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı hökumət tərəfindən güzəştlər müəyyən edilmişdir.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də işlər davam etdirilir. Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunmuşdur. Muxtar respublikanın əsas toxumçuluq bazası olan bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışı da həyata keçirilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövrdə məhsul istehsalçıları 7 min 79 ton mineral gübrə ilə təmin edilmişdir. I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.



Əhalinin ilboyu meyvə-tərəvəz məhsulları ilə təminatı muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbinin ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbar və sahəsi 131 min 162 kvadratmetr olan 23 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır.

2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması cari ildə belə təsərrüfatların daha da genişləndirilməsinə, əhalinin kənd təsərrüfatına olan marağının artmasına və maddi rifah halının daha da yaxşılaşdırılmasına səbəb olmuşdur. Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. Ötən dövrdə muxtar respublikada 372 milyon 356 min 500 manat kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

*Muxtar respublikada kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələr bundan sonra diqqətdə saxlanılacaq, ardıcıl tədbirlər həyata keçiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Tələbələrə təqaüd kartları verilib

Naxçıvan Dövlət Universitetində “Naxçıvan tələbələrinə təqaüd” proqramı çərçivəsində “Nar” mobil operatoru tərəfindən təqaüd kartlarının təqdim edilməsi ilə bağlı tədbir keçirilib. Tədbirdə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov belə tədbirlərin tələbələrin sosial-rifah halının yaxşılaşdırılmasındakı əhəmiyyətindən danışıb.



Rabitə və Yeni Texnologiyalar nazirinin müavini Əli Mikayılov qeyd edib ki, İnformasiya texnologiyaları və İnformatika ixtisasları üzrə təhsil alan, xüsusilə fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbəyə 2019-2020-ci tədris ilində “Nar” tərəfindən 200 manat məbləğində aylıq təqaüd ayrılıb. Tədbirdə iştirak edən “Azerfon”un baş icraçı direktoru Qunnar Panke təqaüd proqramının qalibləri ilə görüşərək onları təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tələbələr adından çıxış edən İnci Hüseynli minnətdarlığını bildirib.

Qeyd edək ki, “Nar” artıq ikinci ildir, rabitə sahəsində gələcəyin yerli peşəkarlarının yetişdirilməsinə dəstək məqsədilə muxtar respublikada təhsil alan tələbələr üçün təqaüd proqramını təşkil edir.

İkitərəfli görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının elmi potensialı, maddi-texniki bazası və bu ali məktəbdə yerinə yetirilmiş beynəlxalq layihələr haqqında ətraflı məlumat verib.

Sonra qonaqlar İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinə gələrək burada fəaliyyət göstərən kamera nəzarət sistemi, server və texniki təminat otaqlarının işi ilə yaxından tanış olublar.

**Səadət ƏLİYEVA**

# Xalq ruhunu yaşadan folklor örnəkləri Hüseyn Cavid yaradıcılığında

***Şifahi ədəbiyyat örnəklərini yazılı ədəbiyyata gətirmək ənənəsi çox qədimlərdən şair və yazıçılarımızın yaradıcılığına böyük uğur qazandırmışdır. Ən yaxşı yazılı ədəbiyyat nümunəsi məhz şifahi ədəbiyyat örnəkləri ilə zəngindir. Şifahi ədəbiyyat yazıçı və şairlərin əsərlərində fikir və ideyanı oxucuya asan yolla çatdırmaq üçün əsas silah idi. Yəni xalqa lazım olanı elə xalqın dilində çatdırmaq daha məqsədəuyğundur. Digər bir tərəfdən, şifahi ədəbiyyatı yazılı ədəbiyyata əsas dayaq hesab edən yazarlar öz milli kökünə, soyuna dərindən bələd olan insanlardır və onu qoruyub saxlamağın, gələcək nəsillərə ötürməyin bir yolunun da bu üsul olduğunu çox gözəl bilirdilər. Onlar həm də əsərlərinin dil-üslub xüsusiyyətlərinin sadə və anlaşılan olması üçün xalq yaradıcılığı janrlarından istifadəyə daha çox diqqət edirdilər.***

Nəsimi, Füzuli, Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Hüseyn Cavid və onlarla digər sənətkarımız xalq yaradıcılığı qaynaqlarına dönə-dönə müraciət etmişdir. Bu gün də zəngin poeziyamızı, dramaturgiyamızı və nəsrimizi xalq qaynaqlarından kənarda düşünmək, təbii ki, mümkün deyil.



Ölməz sənətkar Hüseyn Cavidin istər lirik, lirik-epik şeirləri, istərsə də mənzum və mənsur dramları atalar sözləri, məsəllər, yeri gəldikcə, bədii aforizmlərlə də çox zəngindir. Bu hikmətli sözlərin əksəriyyətində qəhrəmanlıq, həyat sevgisi, mübarizə eşqi, nikbinlik, əməyə məhəbbət, insanpərvərlik, sülhsevərlik, ağıl və mərifət kimi gözəl xüsusiyyətlər təbliğ edilir:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü;*

*Altun qədəh cənnət olsa – qırmalıdır,*
*Cəllad yüz min tövbə qılsa, kəsməlidir əllərin;*

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli.*

Böyük Cavid məşhur atalar sözlərindən, hikmətli kəlamlardan da istifadə edib. Bəzən bu ifadələri olduğu kimi saxlayıb, bəzən də poetik əlavələr edib. Məsələn:

*"Cahan igid ərlərindir, qorxan gözə çöp düşər".*

Yaxud:

*"Hər gecənin bir səhəri var"* atalar sözünü poetikləşdirərək *"Hər gecədən doğar bir Günəş"* kimi işlədibsə, *"Zimistan çəkməyən bülbül baharın qədrini bilməz"* kimi hikmətli sözün məzmununu saxlamaqla onlara yeni forma verib:

*Qara bulud sarmayınca səmanı*
*İnsan duymaz günəşdəki səfanı.*
*Bahar əldən çıxmayınca anılmaz.*

Və ya *"Qara günün ömrü az olar"* atalar sözünün məzmununu saxlamaqla yeni formada işlədib:

*"Kədərli günlər qara bulud kimi tez gəlib keçər".*

Xalq yaddaşında yaşayan *"İki könül birləşsə, qoparar dağı-daşı"* kimi atalar sözündən: *"İki könül birsə, diləklər də birdir"* şəklində işlədir. *"Silah mərd igidə yaraşıqdır"* atalar sözü isə *"Silah mərd oğula bir arkadaşdır"* şəklində öz uğurlu poetik ifadəsini tapıb.

Yazıçı və şairlərimiz folklor örnəklərini bəzən öz əsərlərində olduğu kimi işlədir, süjet xəttində, motivlərdə əsaslı dəyişikliklər etmirlər. Bəzən isə hər bir yazıçı və şair düşüncə dünyasını, estetik üslubunu təyin etmək üçün folklor örnəklərinə müraciət edir ki, bu da mətnin alt qatında folklorun görünməsidir. Bu halda müəllif qarşısına qoyduğu ideyanı qeyri-ixtiyari mənsub olduğu xalqın folklor mirasına baş vurmaqla həll etmiş olur. Bu mexaniki müraciət digər yazarların əsərlərində olduğu kimi, Hüseyn Cavidin bir çox əsərlərində, o cümlədən dramaturqun "Şeyx Sənan" faciəsində daha geniş şəkildə özünü göstərir. Lakin müşahidələr nəticəsində aydın olur ki, çox hallarda atalar sözləri, hikmətli ifadələr Cavidin əsərlərində dəyişdirilərək verildiyi kimi, olduğu kimi də işlədilib. Məsələn:

*Güclü gücsüzdən intiqam almaz.*
*Tək əldən səs çıxmaz.*
*Məncə fürsət qanadlı bir quşdur,*
*Kim ki, əldən uçursa, sərxoşdur.*
*Hər dərd üçün, şübhəsiz, bir çarə var,*
*Biri ölməzsə, dirilməz birisi...* və sair.

Dramaturqun "Knyaz" əsərində də yetərincə atalar sözü işlənib. Haqq-ədalətin itib yoxa çıxdığı bir vaxtda Cavid qəhrəmanının vasitəsilə el yaddaşında yaşayan bir kəlamı xatırladır. Knyazın qəddarlığına dözə bilməyən Anton, nəticədə, haqqın qalib gələcəyinə ümid bəsləyir. Ədib qəhrəmanın gələcəyə ümidini el kəlamı ilə belə ifadə edir:

*Gedəlim, haqq sözü haqsız nə qanır,*
*Gedəlim, haydı, əvət, haqq alınır.*

"Haqq verilməz, alınar", *"Haqq nazilər, ancaq üzülməz"* atalar sözləri kiçik leksik fərqlərlə bu fikirlərin kökündə dayanır.

Xalq ədəbiyyatından – folklordan bəhrələnən dramaturqun öz hikmətli ifadələrinə də əsərlərində tez-tez rast gəlinir: Məsələn: *"Əsl qəhrəmanlıq yara bağlamaqdır, abad etməkdir".*

Hüseyn Cavidin əsərləri ağız ədəbiyyatının ilkin janrlarından olan alqış və qarğışlarla da zəngindir. Dramaturq bu nümunələri obrazların dili ilə təqdim etməklə qədim türk dünyaduyumunu ifadə edir və bununla da türkün tarixən zəngin kökə və adət-ənənəyə malik olduğunu sübut etmiş olur. Xalq dilində belə bir alqış var: *"Kərəmin, lütfün əskik olmasın!"* Bu alqış "Knyaz" əsərində Kintoya gül dəstəsinin pulu verildikdə belə ifadə edilir:

*Knyazın əskik olmasın kərəmi,*
*Var olun!*

"Ana" dramında Səlma ananın monoloqunda da alqışlı misralara rast gəlirik:

*Get, arslanım, get, sevindirdin bəni,*
*Oğlum, şadikam etsin Allah səni!*
*Ah, yürəyim sanki dönmüş məşələ,*
*Ya Rəbb! Təhəmmül ver, səbr ata eylə!*
*Hər anayı et bənim kibi dilşad!*

Və ya:

*Gül rəngin afət görməsin, solmasın!*
*İsmət! Heç bir günüm sənsiz olmasın!*

Böyük dramaturq əsərlərində obrazların ağrı-acısını, haqsızlığa qarşı qəzəbini ifadə etmək üçün qarğışlara da müraciət edir. Bəzi türk xalqlarında qarğışlar "bəddua" da adlanır. Hüseyn Cavid qədim türk dünyaduyumunu öz əsərlərində olduqca ustalıqla təqdim edir. Belə ki, türklərdə duanın, yəni alqışın müsbət təsirinə inanıldığı kimi, bədduanın, yəni qarğışın da gücünə, böyük təsirinə inanırlar. Bu inancın nəticəsidir ki, məzlumların, yetimlərin, gücsüzlərin, xüsusilə də ata-ananın qarğışlarından çəkinilir. Qarğışların bu baxımdan funksiyası insanları pisliklərdən, zərərdən, şərdən, harama meyil etməkdən uzaq tutur. Beləliklə, qarğışlar həm də yaxşılığı təşviq etmə gücünə malikdir.

Hüseyn Cavid el arasında məşhur olan *"Ata-ananın alqışı alqış, qarğışı da qarğışdır"* kəlamına uyğun olaraq bəddua haqda türk dünyaduyumunda mövcud olan fikirləri "Şeyx Sənan" əsərində gürcü qızı Xumarın dili ilə ifadə edir. Qeyd edək ki, Xumar gürcü qızı olsa da, onun fikirləri və sədaqəti türk millətinə xas xüsusiyyətdir. Ana-ata vəsiyyətinə əməl etmək, əməl olunmayacağı təqdirdə ana-atanın bədduasına tuş gəlməkdən qorxu lap qədimdən məhz türklər arasında yayılmış bir inancdır. Xumarın fikirlərində xristian dininə məxsus elementlər türk inancı daxilində verilir:

*Cümlə əhval əyandır iştə sana,*
*Çarə yoq, çarə yoq, gözəl Nina!..*
*Tutmasam annəmin vəsiyyətini,*
*Tutacaq sonda bədduası bəni.*
*Bana söylərdi daima: "Yavrum!*
*Ərə getmək həyat için uçurum...*
*Yoqdur erkəklərin vəfası, Xumar!*
*Yerin olsun fəqət manastırlar".*

Hüseyn Cavid mənsub olduğu xalqın milli-mənəvi dəyərlərini sevməklə yanaşı, onu həm də qoruyub saxlamaq kimi müqəddəs missiyanı yerinə yetirirdi. Belə ki, şifahi yaradıcılıq nümunələrinə əsl sənətkar kimi yanaşma böyük şairin yaradıcılığında bariz şəkildə əks olunub. Cavid epik və lirik janrlarda yaratdığı mükəmməl poetik nümunələrdə həm də xalqımızın məişət və mövsüm mərasimləri ilə bağlı adət-ənənələri canlandırıb. Bu ənənələrin bəzilərini obrazların dili, hadisələr vasitəsilə təqdir etməsinə baxmayaraq, bunlardan zərərli adət-ənənələrin icrasına tənqidi münasibətini də bildirir.

Qeyd edək ki, türk tayfaları arasında lap qədimdən məişətlə bağlı bəzi mərasimlərin özəyini müxtəlif adətlər təşkil edirdi. Bunlardan biri də toy mərasimidir. Belə ki, toyun başlanğıcı qızbəyənmə ilə başlayardı. Bu da oğlanın ana-atasının rəyi, istəyi əsasında öz həllini tapardı. Bəzi ailələr qızı var-dövlətinə, bəziləri əsil-nəcabətinə, bəziləri qızın iş-güc bacarmasına, çox az ailə isə qızın xoşrəftar, tərbiyəli və digər müsbət cəhətlərinə əsas insani dəyər kimi diqqət edərdilər. Ümumiyyətlə, bu məsələlərdə oğlanın və ya qızın rəyi soruşulmazmış. Bu məqam görkəmli dramaturqu da hər zaman narahat etmiş, odur ki, əsərlərində bu adəti obrazların dili ilə tənqid etmişdir. "Maral" əsərindən bir parçaya diqqət edək:

"Turxan bəy: Xayır, oğul bənimsə, xəbərsiz iş tutmaz! Onun için bir qız bulmuşam ki, röyasında belə görəməz. Həm gözəl, həm ana-babasının bir tanəsi, həm də son dərəcə zəngin.

Nadir bəy: Bəncə gözəllik zevqə aid bir şeydir. Sərvət isə insanı pək məsud edəməz. Bir də bir qızı sərvəti için deyil, dilxah və tərbiyəli olduğu için alırlar.

Turxan bəy: Nadir! Heç bir hiss, heç bir qüvvət, heç bir yer yoq ki, orada altın, gümüş rol oynamasın. Əmin olunuz ki, dünyanın bütün izzəti, bütün səadəti ancaq para ilə əldə edilə bilir.

Nadir bəy: Əvət, hər şey para ilə əldə edilir; illa fəzilət və insaniyyət!"

Hüseyn Cavid əsərlərində xalq ədəbiyyatından bəhrələnən aşıq yaradıcılığına münasibət də özünü göstərir. Məlum olduğu kimi, aşıqlar hər zaman xalqın dərd-sərini toylarda, el yığıncaqlarında saz çalıb oxumaqla ifadə etməkdən çəkinməyiblər. Əslində, onu evinə dəvət edəni şənləndirmək aşığın üzdə görünən fəaliyyəti idi. Aşıq oxuduğu mahnılarında xalqın dərd-sərini, dövrdən, hakim dairələrdən narazılığını ifadə edirdi. Dövrün, zamanın xalqa vurduğu yaraları, kasıblıq, xanların, bəylərin özbaşınalığı, dünyanı fəth etmək uğrunda fatehlərin tökdüyü qanlardan doğan nifrət aşıqların repertuarında yer alan əsas mövzular olub. Bu məqam böyük Cavidin əsərlərində də öz əksini tapır. Onun "Maral" əsərində Turxan bəyin məclisini şənləndirmək üçün çağırılan Aşıq Sultan oxuduğu havalarda qoşmalardan istifadə edir. Əvvəlcə sevginin insana yüksək mənəviyyat bəxş edən bir duyğu olduğunu ifadə edən qoşmalar söyləyir:

*Vicdanları parlaq tutan sevgidir,*
*Sevgisiz könül ya daşdır, ya dəmir...*
*Bir könülə iki sevgi yaraşmaz,*
*Könül bir, sevgi bir, böyük Tanrı bir...*

Aşıq Sultan aşıqlıq sənətindən irəli gələn müqəddəs missiyanı – xalqın təəssübünü hər şeydən üstün tutaraq onu müxtəlif zamanlarda incidən, ağrıdan məqamları söylədiyi qoşma vasitəsilə belə ifadə edir:

*Nə buldular İsgəndərlər, Çingizlər?!*
*Qanlar töküb, canlar yaqıb getdilər!*
*Cihanı titrədib alt-üst etdilər,*
*Qanlı bir iz bıraqdılar ellərdə.*

Hüseyn Cavid xalqın yaratdığı örnəklərdən geniş miqyasda bəhrələnən böyük sənətkar idi. Araşdırmalardan da göründüyü kimi, görkəmli dramaturq mənsub olduğu Azərbaycan xalqının milli-mənəvi dəyərlərini sevən, hər bir xalq yaradıcılığı örnəyinin daşıdığı funksiyanı dərindən bilən və onların gələcək nəsillərə ötürülməsinin vacib məsələ olduğunu hesab edən sənətkardır. Elə ona görədir ki, böyük şair-dramaturqun ən kiçik əsərlərində belə, xalq ruhu yaşayır.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***



## Praktik məşğələ keçirilib

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülən ixtisaslarının I kurs tələbələri üçün əlyazma və çap kitablarının tədqiqinə dair praktik məşğələ keçirilib.

Tədbiri fondun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov açaraq tələbələrə rəhbərlik etdiyi müəssisənin elmi fəaliyyəti, mühafizə olunan qədim əlyazma və çap kitabları haqqında məlumat verib. Bildirib ki, sistemli tədqiqata cəlb edilən Naxçıvan tarixi və mədəniyyəti ilə bağlı bir sıra nadir sənət nümunələrinin, qədim çap kitab və məktubların üzərində geniş elmi-tədqiqat işləri aparılır.

Sonra Fərman Xəlilov, şöbə müdirləri – dosent Səbuhi İbrahimov, Fəxrəddin Eylazov və fondun elmi işçisi Nicabət İslamova məruzə ilə çıxış ediblər.

Daha sonra tələbələr fondun arxivi ilə yaxından tanış olublar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## "Tariximizi qoruyaq və yaşadaq" aksiyasına start verilib

*Zəngin tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyətə malik olan muzeylərimiz gündən-günə tarixi və maddi mədəniyyət nümunələri ilə zənginləşdirilir.*

Qədim maddi mədəniyyət nümunələrinin toplanması və qorunması işində məktəblilərin də iştirakını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrində "Tariximizi qoruyaq və yaşadaq" devizi altında aksiya keçirilir.

Aksiyanın keçirilməsində əsas məqsəd şagirdlərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək, tariximizin öyrənilməsi ilə yanaşı, onun qorunması və yaşadılması istiqamətində də fəal iştirakçıya çevirməkdir. Aksiya çərçivəsində şagirdlər muxtar respublika ərazisində olan qədim maddi mədəniyyət nümunələrini toplayaraq muzeylərimizin zənginləşdirilməsində öz vətəndaşlıq borclarını yerinə yetirəcəklər.

Aksiyada fəal iştirak edən müəllim və şagirdlər Təhsil Nazirliyi tərəfindən mükafatlandırılacaqlar.

Qeyd edək ki, ötən tədris ilində təşkil olunan aksiyada məktəblərin müəllim və şagirdləri tərəfindən qədim tariximiz və mədəniyyətimizi əks etdirən nümunələrdən ibarət 400-dən çox eksponat muxtar respublikanın muzeylərinə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, 58-ci məhəllə 4/35 ünvanında yaşayan Bayramov Sənan Canpolad oğlunun adına olan AA007457 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü və MH-0030969 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Rəhimova Minaxanım Yunis qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 750